# "ERMƏNİ VİLAYƏTİ": ƏRAZİSİ, SƏRHƏDLƏRİ, İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ

***Elçin QARAYEV,***
*AMEA-nın A.A.Bakıxanov adına Tarix*
*İnstitutunun Azərbaycanın yeni tarixi şöbəsinin*
*aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent,*
*elchin_garayev@mail.ru*

***AÇAR SÖZLƏR:*** *"Erməni vilayəti", ərazi, sərhəd, inzibati-ərazi bölgüsü, dairə, mahal, kənd.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *"Армянская область", территория, граница, административно-территориальное деление, округ, магал, село.*

***KEY WORDS:*** *«Armenian region», territory, border, administrative-territorial division, maqal, district, village.*

İrəvan və Naxçıvan xanlıqları çar Rusiyası tərəfindən işğal edildikdən sonra 1828-ci il martın 21-də çar I Nikolayın (1825-1855) fərmanı ilə birləşdirilərək "Erməni vilayəti" adlı inzibati-ərazi qurumu yaradıldı [1, s. 178-179]. Məqsəd bu bölgəni Azərbaycandan ayırmaq, xristianlaşdırmaq, Osmanlı Türkiyəsi və Qacar dövlətləri sərhədində bufer zona yaratmaq idi. "Erməni vilayəti" adlı inzibati-ərazi qurumu 1828-ci ildən 1840-cı ilə qədər fəaliyyət göstərmişdir. O, İrəvan, Naxçıvan əyalətlərindən və Ordubad dairəsindən ibarət olmuşdur [2, s. 448].

"Erməni vilayəti"nin sərhədləri Arpaçay çayı yaxınlığında yerləşən Qızılkilsə kəndindən başlayaraq şərqə doğru Bazarcıq kəndinə və Alagöz dağına doğru istiqamətlənmişdir. Buradan Şörəyel vilayətini Talın mahalından ayıran Arpaçay çayını sol tərəfdən keçərək şimal-şərq istiqamətində Cəngi və Karvansaray kəndlərinə doğru dönmüş, Cəngidən isə sərhəd Pəmbək dağ silsiləsi istiqamətində çıxaraq düz gözəçarpmaz meyilliliklə şimal istiqamətində Qazax distansiyasına qədər, buradan cənub istiqamətində İrəvan əyalətinin Abaran, Dərəçiçək və Göyçə mahallarını sol tərəfdən ayıran Yelizavetpol dairəsinə, Qarabağı, Pəmbəyi, Qazağı və Şəmşəddili ayıran Konqur dağına qədər istiqamət almışdır. Konqur dağından sərhəd bir qədər qərbə meyil etməklə Gümüşxana və Dərələyəz mahalı istiqamətində cənuba dönmüş, buradan şərqə doğru meyillənərək Araz çayında qurtarmışdır [2, s. 352-353].

Bu vilayət Azərbaycanın ən məhsuldar bölgələrindən biri idi. Onun Osmanlı Türkiyəsi ilə sərhəddinin üzunluğu 230, Qacar səltənəti ilə 250 verst, dairəvi uzunluğu 900 verst, ümumi sahəsi isə 24.000 kv. verstə qədər olmuşdur [2, s. 353].

"Erməni vilayəti"ni ilk dövrlərdə hərbçi olan rəis, onun yanında 2 rus zabitindən, məşvərətçi səsə malik 1 Azərbaycan türkündən və 1 ermənidən ibarət köməkçi heyət idarə etmişdir. İrəvan

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

şəhərlərində polis və məhkəmədən ibarət idarə strukturları yaradılmış, Naxçıvan və Ordubadda isə əvvəlki xan idarə üsulu saxlanılmışdır. Bundan əlavə, vergiləri vaxtında yığmaq üçün şəhər xəzinədarlığı da təsis edilmişdir. Vergilərin yığılması, xəzinə mülklərinin qeydiyyata alınması üçün bir zabitdən və iki yerli məmurdan ibarət xüsusi komissiya yaradılmışdır. Vilayətdə kollegial idarə sistemi mövcud olmuşdur [3, s. 489; 2, s. 448].

"Erməni vilayəti" mövcud olduğu dövrdə buranın komendantları general-mayor Çavçavadze (1828-ci il 21 fevral-1829-cu il yanvar), polkovnik M.Z.Arqutinski-Dolqoruki (1829-cu il yanvar-1830-cu il yanvar) və knyaz V.O.Behbudov (1830-cu il yanvar-1840) olmuşdular [4, s. 531].

"Erməni vilayəti"nə daxil olan əyalət və dairə inzibati-ərazi quruluşu cəhətdən mahal və kəndlərə bölünmüşdü. Mahallarda və kəndlərdə idarə strukturu xanlıq dövründə olduğu kimi saxlanılmışdı. Rusiya hakimiyyət orqanlarına sədaqətli olan yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdilər [4, s. 489].

Rusiya hakimiyyət orqanlarının İrəvan bölgəsində yaratdığı bu müvəqqəti idarə strukturu 1833-cü ilə qədər mövcud olmuşdur. Həmin il iyunun 23-də keçirilmiş yeni inzibati-ərazi islahatı ilə əlaqədar olaraq idarə orqanlarında köklü dəyişikliklər edildi. Belə ki, vilayətin idarəçiliyi icraedici və məhkəmə olmaqla iki hissəyə bölündü. Əvvəllər olduğu kimi, vilayəti hərbi general idarə etməli idi. Vilayət hakiminin səlahiyyəti artırıldı, onun yanında üç nəfərdən ibarət şura yaradıldı. Bundan əlavə, vilayət rəisinin yanında dəftərxana fəaliyyət göstərirdi [1, s. 137; 2, s. 459-460].

Yeni qanuna görə, şəhər məhkəmələri əvəzinə, İrəvanda "Mülki vətəndaşlar və mübahisəli işlər üçün vilayət məhkəməsi" yaradıldı. Məhkəmə mülki, hərbi və şəriət olmaqla üç hissəyə bölündü. Mülki işlərə İrəvan şəhərində yaradılmış əyalət məhkəməsində baxılırdı. Məhkəmədə sədr, bir rus və iki yerli məmurdan ibarət iclasçılar iştirak edirdi. Məhkəmə üç mərhələdən keçirdi. Birinci mərhələdə mübahisəli məsələlər nəzərdən keçirilirdi, ikinci mərhələdə iddia əyalət rəisinin 500 rubldan yuxarı olmayan cəriməsi ilə əvəzlənirdi, üçüncü mərhələdə (apellyasiya) Qafqazdakı rus qoşunlarının baş komandanına müraciət edilirdi. Hərbi məhkəmə (və yaxud səhra məhkəməsi) isə İrəvan komendantının sədrliyi ilə keçirilirdi [5, s.138; 2, s. 460; 4, s. 282].

Yerli əhalinin adət-ənənələrinə qarşı çıxmaq istəməyən Rusiya icra orqanları şəriət məhkəmələrini saxlamaq məcburiyyətində qalmışdı. Bu məhkəmələr əsasən dairə və kəndlərdə fəaliyyət göstərirdi. Məhkəmə hakimi hesab edilən qazılar mübahisəli məsələləri hər iki tərəfin razılığı ilə həll edirdilər. Hökumət şəriət məhkəmələrinin üzvlərinə məvacib verirdi. Əyalətlərdə onların məvacibi ildə 704 gümüş rubl - məhsulla 72 xalvar buğda, 5 xalvar çəltik və 4 xalvar arpa təşkil edirdi [2, s. 461; 4, s. 282].

Vilayətin maliyyə bölməsi əvvəllər birbaşa vilayət xəzinə idarəsinə tabe idi. Lakin sonradan bu bölmə gəlir və xəzinə əmlakına nəzarət idarəsi kimi ayrıca bölmə olaraq fəaliyyət göstərməyə başladı. Onun tərkibi idarə rəisindən, məsləhətçidən və vilayət xəzinədarından ibarət idi. Burada xüsusi dəftərxana da fəaliyyət göstərirdi [5, s. 137; 2, s. 460].

Şəhər idarəçiliyi də yenidən qurulmuşdu. İrəvan şəhərində ayrıca polis idarəsi yaradılmışdı. Onun tərkibi polis rəisindən, xüsusi pristavdan, şəhər məhəllələrini idarə edən 4 yüzbaşıdan və

10 nəfər onbaşıdan, 1 katibdən, Azərbaycan türkcəsində yazan 1 mirzə və 1 tərcüməçidən ibarət idi [5, s.138].

Yeni qanuna əsasən, "Erməni vilayəti" dairə, mahal və kəndlərə bölünmüşdü. Dairələr rus hərbçləri tərəfindən idarə edilirdi. Dairə rəislərinin yerli əhalidən biri Azərbaycan türkü, digəri isə erməni olmaqla iki köməkçisi var idi. Digər tərəfdən, dairə rəislərinin sərəncamında vergi işinə baxan komissarlar da fəaliyyət göstərirdilər [5, s. 137].

"Erməni vilayəti"nə daxil olan İrəvan əyaləti İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölünmüşdü. Hər bir dairəyə bir neçə mahal düşürdü. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq mahallarını, Şərur dairəsi Şərur, Vedibasar, Gərnibasar və Zəngibasar mahallarını, Sürməli dairəsi Sürməli mahalını, Dərəkənd-Parçenis dərəsini və Araz çayının sağ tərəfində yerləşən Gərnibasar və Vedibasar mahallarının bir hissəsini, Sərdarabad dairəsi isə Səədli, Talın, Seyidli-Ağsaqqallı, Abaran, Gərni və Sərdarabad mahallarını əhatə edirdi [2, s. 448].

Lakin aparılan inzibati-ərazi dəyişikliyi nəticəsində İrəvan əyalətinin 10 mahalı qalmışdı. Rusiya hakim dairələrinin səyi nəticəsində bəzi mahallar birləşdirilmiş, sayı azaldılmışdı. Həmin mahallar bunlardır: Qırxbulaq, Dərəçiçək, Göyçə, Şərur, Dərəkənd-Parçenis, Sərdarabad (Talın mahalının bir hissəsi ona birləşdirilmişdi), Sürməli, Zəngibasar, Vedibasar (Gərnibasar mahalı ona birləşdirilmişdi), Abaran (Körpübasar mahalı ona birləşdirilmişdi) [6, s. 270; 7, s. 508].

Naxçıvan vilayəti aparılan inzibati-ərazi islahatı nəticəsində əvvəlki mahallarında qalmışdı: Əlincəçay, Naxçıvan, Məvazixatun və Dərələyəz. Əlincəçay mahalı Qarabağ vilayətinin yüksək dağlarından Araz çayına və Naxçıvan mahalına qədər olan bütün Naxçıvan əyalətinin şərq hissəsini əhatə edirdi. Mahal şərq tərəfdən Ordubad dairəsi ilə həmsərhəd idi [2, s. 448].

Naxçıvan mahalı şimal tərəfdən Araz çayının sahili boyunca yerləşərək, Qarabağ vilayəti və Dərələyəz mahalına qədər uzanırdı. Şərq tərəfdən Əlincəçay, qərb tərəfdən isə Xok mahalları ilə həmsərhəd idi. Bu mahala Naxçıvan çayının mənbəyindən başlayaraq suvarılan bütün torpaq sahələri daxil idi [2, s. 448].

Məvazixatun mahalı Naxçıvan əyalətinin mərkəzi hissəsini əhatə edirdi. Bu mahal isə Dərələyəz, Xok və Naxçıvan mahalları ilə həmsərhəd idi. Onun İtqıran, Diqin, Buzqay, Kürdist, Oqbun və Sultanbəy kimi bəzi kəndləri Dərələyəz mahalına verilmişdi [2, s. 446-447].

Xok mahalı Naxçıvan vilayətinin qərb hissəsində yerləşirdi. O, Araz, qərb tərəfdən Şərur mahalı, şərq tərəfdən isə Naxçıvan mahalı ilə həmsərhəd idi [2, s. 447].

Dərələyəz mahalı isə Naxçıvan əyalətinin şimal hissəsini əhatə edirdi. Mahala Şərqi Arpaçay çayı ilə suvarılan bütün torpaq sahələri daxil idi. Dərələyəz mahalı şimaldan Qarabağ vilayətilə, cənubdan Şərur, qərbdən Göyçə və Vedibasar, şərqdən isə Naxçıvan mahalları ilə həmsərhəd idi [2, s. 447].

Ordubad dairəsinə beş mahal daxil idi. Birinci Ordubad mahalıdır. Bu mahal Araz çayı və mahalı Qarabağ əyalətindən ayıran Qapıcaq dağları ilə əhatə olunmuş Ordubad dairəsinin cənub-şərq hissəsini tuturdu. Qərb tərəfdən Əylis və Dastin mahalları ilə həmsərhəd idi [2, s. 447].

Əylis mahalı Nüqədi çayı tərəfindən yaranan dərəni əhatə edirdi. Bu mahal şimaldan, qərbdən və cənub tərəfdən Dastin mahalı, şərqdən isə Ordubad mahalı ilə həmsərhəd idi [2, s. 447].

Dastin mahalı isə cənub, şərq və şimal tərəfdən Əylis mahalı ilə əhatə olunmuşdu. Onun cənub tərəfdən bir hissəsi Araz çayı ilə, qərbdən isə Çinanap mahalı ilə həmsərhəd idi. Mahal Araz çayına qədər Vənənd çayı tərəfindən yaranan dərədə yerləşirdi [2, s. 447].

Belev mahalı Qarabağ dağlarına və cənubda Araz çayına qədər uzanaraq, şərqdən Dastin mahalı, qərbdən Əlincəçay mahalları ilə həmsərhəd idi [2, s. 447].

Çinanap mahalı Urmis çayı tərəfindən yaranan dərə ilə uzanır, Qarabağ dağlarından başlayaraq Araz çayına qədər qərb tərəfdən Belev mahalı, şərqdən isə Dastin mahalı ilə həmsərhəd idi [2, s. 448].

"Erməni vilayəti"nin inzibati-ərazi bölgüsünə üç şəhər - İrəvan, Naxçıvan və Ordubad şəhərləri daxil idi. İrəvan şəhəri həm vilayət mərkəzi, həm də əyalət mərkəzi idi. O, şimaldan Qırxbulaq mahalı, cənubdan və qərbdən Zəngibasar mahalı, şərqdən isə onu Gərnibasar mahalından ayıran Oxçaberd dağının daşlı pillələri ilə əhatə olunmuşdu. "Erməni vilayəti"nin mərkəzi olduğu illərdə onun sahəsi 28 verstə bərabər idi. İşğalın ilk dövrlərində İrəvan şəhəri üç məhəllədən - "Şəhər", "Təpəbaşı" və "Dəmirbulaq" - ibarət olmuşdur. "Şəhər" məhəlləsi İrəvanın şimal-şərqində, "Təpəbaşı" məhəlləsi qərbində, "Dəmirbulaq" məhəlləsi isə cənub-şərq hissəsində yerləşmişdi [2, s. 464-465].

Naxçıvan şəhəri Naxçıvan əyalətinin mərkəzi idi. O, 39$^0$ 5$^{//}$ 2$^{///}$ şimal en, 62$^0$ 59$^{/}$ 25$^{//}$ uzunluq dairəsində, sağ tərəfdən Naxçıvan çayından 2 verst, Araz çayından 8 verst, İrəvan şəhərindən isə 139 verst aralıda yerləşirdi. Naxçıvan şimaldan Şeyxmahmud kəndi, şərqdən Şəkərabad kəndi, cənubdan Tunbul və Yamxana kəndləri, qərbdən Əliabad kəndi və Xok mahalı ilə həmsərhəd idi. Naxçıvan şəhəri sərhəddinin dairəvi uzunluğu 6 verst, ona məxsus ətraf torpaqlarla birlikdə isə 20 verst olmuşdur. Həmin dövrdə Naxçıvan şəhəri 12 - Sarbanlar, Oruc məhlə, Köhnəqala, Xoşulu, Əli xan, Çaparxana, Ziqilyar, Billicə, Şahab, Xoylu, Qala, Təzəkənd və yaxud Uzundivar məhəllələrinə bölünmüşdü [2, s. 477].

Ordubad şəhəri şimaldan Aşağı Andemiç, şərqdən Kötan, qərbdən Dəstə kəndləri ilə, cənubdan isə Araz çayı ilə həmsərhəd idi. O, 38$^0$ 49$^{//}$ 20$^{///}$ şimal en, 63$^0$ 13$^{/}$ 20$^{//}$ uzunluq dairəsində yerləşmiş, sahəsi ona məxsus ətraf torpaqlarla birlikdə 12 verstə bərabər olmuşdur. Ordubad şəhəri 5 - Ambar, Kürdütal, Minqi, Sar-şəhər və Üç-Dyudənq məhəllələrinə bölünmüşdü [2, s. 481].

Beləliklə, çar Rusiyası İrəvan və Naxçıvan xanlıqlarını işğal etdikdən sonra bu bölgənin inzibati-ərazi bölgüsünü ləğv etmək, özünə uyğun qayda-qanun yaratmaq və ən əsası, bu bölgəni Azərbaycandan ayırmaq, xristianlaşdırmaq siyasəti həyata keçirməyə başladı. "Erməni vilayəti" də bu səbəbdən yaradılmış, lakin bütün bu cəhdlərə baxmayaraq, bölgə Azərbaycan ərazisi kimi qalmışdır.

# ƏDƏBİYYAT


1. Собрание актов, относящихся к обозрению истории армянского народа. В 2-х т., т. 1. Москва: 1833.
2. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ.: 1852.
3. Отношение гр. Паскевича к начальнику Главного Штаба Е.И.В., от 2-го апреля 1828 года, № 51, АКАК., т. VII, д. 438, стр. 487-491.
4. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016.
5. Полное собрание законов Российской империи. Т. VIII. СПБ.: 1834.
6. Обозрение российских владений за Кавказом в статическом, этнографическом, топографическом, финансовом отношениях. В 4-х ч., ч. IV. СПБ.: 1836.
7. Рапорт д.с.с. Палавандова барону Розену, от 3-го февраля 1833 года, № 6, АКАК, т. VIII, д. 388, стр. 504-508.

Эльчин Гараев

## “АРМЯНСКИЙ РЕГИОН”: ТЕРРИТОРИЯ, ГРАНИЦЫ, АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНЫЙ ОКРУГ.

### РЕЗЮМЕ

Статья посвящена границам, территории, системе управления «Армянской области», созданной официальными кругами Российской империи после русской оккупации территорий Ireванского и Нахчиванского ханств. В состав «Армянской области» созданную на границе Османской империи и государства Гаджаров, входили Иреванская и Нахчеванская провинции, а также Ордубадский округ. «Армянская область» делилась на округа, магалы и села, область управлялась русскими военными. На всей территории области внедрялись законы и правила действующие Российской империи.

Elchin Garayev

## “ARMENIAN REGION”: TERRITORY, BORDERS, ADMINISTRATIVE-TERRITORIAL DIVISION

### SUMMARY

The article is devoted to the borders, territory, and the management system of the “Armenian region” created by the official circles of the Russian Empire after the Russian occupation of the territories of the Irevan and Nakhchivan khanates. The «Armenian region» created on the border of the Ottoman Empire and the state of Gajar, included the Irevan and Nakhchevan provinces, as well as the Ordubad district. The «Armenian region» was divided into districts, magals and villages, the region was controlled by the Russian military. The laws and regulations of the Russian Empire were implemented throughout the region.